## BİZİM ŞÜAR:
**"NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"**

## UNUTMA!

### Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | — |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | — |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | — |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | — | 10085 nəfər | 62 nəfər |

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

## HƏRBİ XƏBƏRLƏR

### Dünyanın ən bahalı pilot dəbilqəsi- 400 min dollar



ABŞ-ın hərbi aviasiyası tarixində "Helmet Mounted Display System" (HMDS) pilot dəbilqəsi ən bahalısıdır. Ölkənin Müdafiə Nazirliyi ilə əldə olunan razılığa əsasən, dəbilqə 400.000 dollar məbləğində dəyərləndirilib.

Öz unikallığı ilə seçilən dəbilqənin qoruyucu şüşəsində proyeksiya funksiyası var ki, bu da döyüş təyyarələri üçün yenilikdir.

Müasir texnologiyanın tətbiqi sayəsində pilot öz təyyarəsinin korpusunu da görə bilir.

Dəbilqə elə şəkildə hazırlanıb ki, hətta optik eynəkdən istifadə edən şəxslər də bundan istifadə edə biləcəklər.

Dəbilqə katapult zamanı pilotun baş nahiyəsini qorumaq üçün zərbəyə davamlı materialdan hazırlanıb.

### "Desert Tech" snayperi silahlanmaya qəbul olundu

ABŞ istehsalı olan "Desert Tech" (DTA) snayper tüfəngləri Ukrayna Silahlı Qüvvələrinin arsenalına verilib.

Hazırda DTA SRS-A1 modifikasiyalı snayper tüfəngləri hərbçilərin və polislərin silahlanmasında istifadə olunur. Bu, şəhər döyüşləri üçün effektli silahlardan sayılır.

Bundan daha əvvəl isə ABŞ istehsalı olan "Barrett" tüfəngi Ukrayna hərbi qurumlarının silahlanmasına daxil edilib.

### Cənubi Koreya yeni zenit-raket kompleksi yaradıb

Cənubi Koreyanın LIG Nex1 şirkəti Hərbi Dəniz Qüvvələri üçün kiçik və ortamənzilli yeni zenit-raket kompleksinin nümunəsini nümayiş etdirib.

"Korean Surface-to-Air Anti-Missile" (K-SAAM) adlanan kompleksin yaradılmasına 2011-ci ildən, sınaq testlərinə isə 2013-cü ildən başlanılıb. Bu günə kimi kompleksin 22 sınağı keçirilib. Əlavə olaraq, daha 10 sınağın keçirilməsi də nəzərdə tutulur.

Kompleksin 2017-ci ildə silahlanmaya alınacağı nəzərdə tutulub. 2018-ci ildən isə seriyalı istehsalına başlanılacaq.

Məlumata görə, K-SAAM-ın uzunluğu 2,07 metrdir. Atəş məsafəsinin uzunluğu isə 12-20 km aralığında dəyişir.

### PUA-lara qarşı yeni silah - "DroneDefender"

ABŞ-da fəaliyyət göstərən "Battelle" şirkəti kiçik - multikopter tipli pilotsuz uçuş aparatlarını (PUA) zərərsizləşdirmək üçün "DroneDefender" adlı silah sistemi hazırlayıb.



Sistem atıcı silah platforması əsasında yığılmış, radiosiqnallar ötürən antena və kollimator nişangahdan ibarətdir.

Radiodalğalarla PUA-ların siqnallarını pozmağı bacaran "DroneDefender" uçuş qadağan olunmuş bölgələrə daxil olan pilotsuz aparatları təhlükəsiz şəkildə zərərsizləşdirir.

Yeni silahdan mülki sektorda, eləcə də hava limanları, həbsxana və hərbi bazaların mühafizəsində geniş istifadə olunacağı proqnozlaşdırılır.

Sistemin təsirli mənzili 400 metrdir.

## İNSAN HÜQUQLARI VƏ ƏSAS AZADLIQLARI HAQQINDA AVROPA KONVENSİYASI

*(əvvəli ötən saylarımızda)*

**Maddə 27. Komitələr, Palatalar və Böyük Palata**

**1.** Məhkəmə, qarşısında qaldırılmış işlərə baxmaq üçün üç hakimdən ibarət komitələri, yeddi hakimdən ibarət Palataları və on yeddi hakimdən ibarət Böyük Palatanı təsis edir. Məhkəmə Palataları müəyyən müddət üçün nəzərdə tutulan komitələri yaradır.

**2.** İşdə tərəf olan dövlətdən seçilmiş hakim, yaxud belə hakim olmadığı hallarda və ya o, iclasda iştirak edə bilmədikdə, həmin dövlətin seçdiyi, hakim qismində iştirak edəcək belə şəxs Palatanın və Böyük Palatanın exofficio üzvü olur.

**3.** Böyük Palatanın tərkibinə, həmçinin Məhkəmənin sədri, Məhkəmə sədrinin müavinləri, Palata Sədrləri və Məhkəmə Qaydalarına müvafiq olaraq seçilmiş digər şəxslər də daxil olur. 43-cü maddənin müddəalarına müvafiq olaraq işin Böyük palataya verildiyi hallarda onun iclaslarında bu Palatanın Sədri və işdə tərəf olan müvafiq dövlətin hakimi istisna olmaqla, qərar çıxaran Palatanın hakimlərindən heç biri iştirak etməməlidir.

**Maddə 28. Komitələrin şikayəti qəbul olunmayan elan etməsi**

Komitə yekdil səslə 34-cü maddəyə müvafiq olaraq, verilmiş şikayətləri, əgər belə qərar şikayət əlavə öyrənilmədən qəbul edilibsə, qəbul olunmayan elan edə və ya onu icraatda olan işlərin siyahısından çıxara bilər. Belə qərar qətidir.

**Maddə 29. Şikayətin qəbul olunması və mahiyyəti barədə Palataların qərarları**

**1.** Əgər 28-ci maddədə nəzərdə tutulmuş heç bir qərar qəbul edilməyibsə, Palata 34-cü maddəyə müvafiq verilmiş fərdi şikayətin qəbul olunması və işin mahiyyəti haqqında qərar çıxarır.

**2.** Palata 33-cü maddəyə müvafiq olaraq verilmiş Dövlətlərarası şikayətin qəbul olunması və mahiyyəti haqqında qərar çıxarır.

**3.** Əgər Məhkəmə istisna qaydada digər qərar qəbul etməzsə, şikayətin qəbul olunması haqqında qərar ayrılıqda çıxarılır.

**Maddə 30. Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina**

Əgər Palatanın icraatında olan iş Konvensiyanın və ya onun Protokollarının şərhinə dair ciddi məsələlərə toxunursa, yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qərara zidd ola bilərsə, Tərəflərdən heç biri buna etiraz etmədikdə Palata öz qərarını çıxarana qədər istənilən vaxt Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina edə bilər.

**Maddə 31. Böyük Palatanın səlahiyyətləri**

**Böyük Palata:**

**a)** Palata 30-cu maddənin müddəalarına əsasən yurisdiksiyasından imtina etdikdə və ya 43-cü maddənin müddəalarına müvafiq olaraq iş ona göndərildikdə, 33-cü və ya 34-cü maddəyə müvafiq olaraq verilmiş şikayətlər üzrə qərar çıxarır;

**b)** 47-ci maddənin müddəalarına müvafiq olaraq məsləhətçi rəylər çıxarmaq üçün verilmiş sorğulara baxır.

**Maddə 32. Məhkəmənin yurisdiksiyası**

**1.** Məhkəmənin yurisdiksiyası 33, 34 və 47-ci maddələrdə nəzərdə tutulmuş şərtlərlə Konvensiyanın və onun Protokollarının şərhi və tətbiqinə dair göndərilən bütün məsələlərə şamil edilir.

**2.** Konkret iş üzrə Məhkəmənin yurisdiksiyası ilə bağlı mübahisəni Məhkəmə həll edir.

**Maddə 33. Dövlətlərarası işlər**

Hər hansı Razılığa gələn Yüksək Tərəf digər Razılığa gələn Yüksək Tərəfin Konvensiya və onun Protokollarının müddəalarını pozması ehtimalı ilə bağlı məhkəməyə müraciət edə bilər.

**Maddə 34. Fərdi şikayətlər**

Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiya və ya onun Protokolları ilə tanınmış hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Razılığa gələn Yüksək Tərəflər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

**Maddə 35. Qəbul edilmə meyarı**

**1.** Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra və son qərarın çıxarıldığı tarixdən altı ay müddət keçənədək məsələyə baxa bilər.

**2.** Məhkəmə 34-cü maddəyə müvafiq olaraq verilmiş aşağıdakı şikayətlərə baxmır:

**a)** anonim olan;

**b)** mahiyyətcə məhkəmənin artıq baxdığı məsələ ilə eyni olan, yaxud beynəlxalq araşdırmanın və ya tənzimlənmənin digər prosedurasının predmeti olan və işə aid yeni faktları əks etdirməyən.

**3.** Məhkəmə 34-cü maddəyə müvafiq olaraq verilmiş istənilən fərdi şikayəti, bu Konvensiya və ya onun Protokollarının müddəaları ilə bir araya sığmayan, açıq əsaslandırılmamış və ya şikayət vermə hüququndan sui-istifadə edilmiş hesab edirsə, qəbul olunmayan elan edə bilər.

**4.** Məhkəmə bu maddəyə müvafiq olaraq qəbul olunmayan hesab etdiyi istənilən şikayəti rədd edir. O, bunu icraatın istənilən mərhələsində edə bilər.

**Maddə 36. Üçüncü tərəfin iştirakı**

**1.** Palatada və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan hər bir Yüksək Razılığa gələn Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ var.

**2.** Ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə Məhkəmənin Sədri prosesdə tərəf olmayan istənilən Razılığa gələn Tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər.

### AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

**Maddə 38. İşə baxılma və dostcasına həll prosedurası**

**1.** Əgər Məhkəmə şikayəti qəbul edilən elan edirsə, o:

**a)** maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə işin baxışını davam etdirir və ehtiyac olduqda, maraqlı dövlətlərin bütün zəruri şəraiti yaradacağı səmərəli keçirilmə üçün tədqiqat aparır;

**b)** bu Konvensiyada və onun Protokollarında bəyan edilmiş insan hüquqlarına hörmət əsasında məsələnin dostcasına həllini təmin etmək niyyətilə özünü maraqlı tərəflərin sərəncamına təqdim edir.

**2.** bu bənddə nəzərdə tutulan proses məxfi həyata keçirilir.

**Maddə 39. Dostcasına həllin tapılması**

Dostcasına həll səmərə verdikdə, Məhkəmə faktların qısa xülasəsini və nail olunan həlli əks etdirən qərar çıxarmaqla işi öz siyahısından çıxarır.

**Maddə 40. Açıq dinləmələr və sənədlərə çıxış**

**1.** Məhkəmə istisna hal kimi digər qərar qəbul etməzsə, dinləmələr açıq keçirilir.

**2.** Məhkəmə Sədri digər qərar qəbul etməzsə, Qeydiyyatçıya saxlanmaq üçün verilmiş sənədlər ictimaiyyət üçün açıqdır.

**Maddə 41. Əvəzin ədalətli ödənilməsi**

Əgər Məhkəmə Konvensiya və onun Protokollarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.

**Maddə 42. Palataların qərarları**

44-cü maddənin II bəndinin müddəalarına uyğun olaraq Palataların qərarları qətidir.

**Maddə 43. İşin Böyük Palataya verilməsi**

**1.** Palatanın qərar çıxarmasından sonrakı üç ay müddət ərzində, iş üzrə istənilən tərəf, müstəsna hallarda, işin Böyük Palataya verilməsini tələb edə bilər.

*(davamı gələn sayımızda)*

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Xəqani Qədimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hisənin şəxsi heyəti mayor Səbuhi Pənahova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti mayor Gülağa Meybiyevə **dayısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hisənin şəxsi heyəti kapitan Coşqun Qaybalıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti kapitan Səbuhi Hüseynova **babasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: leytenant X.Tağıyeva**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63, 590-65-26**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 21 (463)
14 noyabr 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## "ORDUMUZUN TƏLƏBATININ BÖYÜK HİSSƏSİNİ AZƏRBAYCAN ÖZÜ TƏMİN EDİR"

***Noyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaq keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yığıncaqda iştirak edib.***

***Dövlətimizin başçısı AMEA-nın ümumi yığıncağında nitq söyləyib.***



Prezident İlham Əliyev qeyd edib ki, hər bir ölkədə, o cümlədən, Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır: "Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər. Azərbaycan da o ölkələrin sırasında olmalıdır".

Ötən illər ərzində Azərbaycanda çox əlamətdar hadisələrdən birinin kosmik sənayenin yaradılması olduğunu deyən dövlət başçısı bildirib ki, birinci telekommunikasiya peyki orbitə çıxarıldıqdan sonra Yer səthini müşahidə etmək üçün orbitə peyk buraxıldı: "İndi biz üçüncü peykin buraxılması ilə məşğuluq. Doğrudan da, ölkədə yeni sənaye istiqaməti, yeni elmi sahə yaradılmışdır. Əlbəttə ki, bu sahədə ilk növbədə beynəlxalq əməkdaşlıq daha da dərinləşməlidir".

Azərbaycanda hərbi sənayenin inkişafından bəhs edən Respublika Prezidenti diqqətə çatdırıb ki, əgər on il əvvəl bu qərar qəbul edilməsə idi, bu gün biz sənayenin bu sahəsinin inkişafından bəhrələnə bilməzdik: "Biz hazırda mindən çox adda hərbi təyinatlı məhsul istehsal edirik. Ordumuzun tələbatının böyük hissəsini Azərbaycan özü təmin edir. Xüsusilə nəzərə alsaq ki, biz müharibə şəraitindəyik, bu, tarixi nailiyyətdir. Lazım olan texnikanı, silahları bəzi hallarda əldə edə bilmirik. Bəzi hallarda embarqolar var. Onların heç bir əsası yoxdur. Amma bu, başqa məsələdir. Biz bunu bilirdik. Bu gün Azərbaycan Ordusunun əsas təminatı daxili istehsal sayəsində mümkündür. Bilirəm, alimlər burada iştirak edirlər, amma daha da fəal iştirak etməlidirlər. Biz, əlbəttə ki, müasir texnologiyalar alırıq. Onları aldıqca biz o texnologiya ilə tanış oluruq. Bizə lazım olan bütün növ silahları gələcəkdə özümüz istehsal edə bilərik. Heç olmasa, o nümunələrdən istifadə edə bilərik. Ona görə burada Azərbaycan alimlərinin fəaliyyəti üçün çox geniş bir meydan var. Azərbaycan dövləti də öz tərəfindən çalışacaq ki, alimləri bu işlərə daha da böyük dərəcədə cəlb etsin".

Prezident İlham Əliyev çıxışı zamanı humanitar elmlər haqqında bir neçə məqamlara toxunub. Bu sahənin daim diqqət mərkəzində saxlanıldığını deyən dövlətimizin başçısı xüsusi olaraq vurğulayıb ki, əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur: "Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik".



Ölkə başçısı tarix elmləri ilə bağlı da bir sıra məsələləri önə çəkib: "Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur, reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azəbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır".

Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu xüsusi olaraq vurğulayan Prezident İlham Əliyev əlavə edib ki, "Qarabağ", "Xankəndi" Azərbaycan sözləridir: "Mən dəfələrlə bildirmişəm ki, əgər Xankəndinin hər hansı bir tarixi adı olsaydı, ermənilər o adı bərpa edərdilər. Onun "Stepanakert" adı bolşevik erməni quldur dəstəsinin rəhbəri Stepan Şaumyanın şərəfinə qoyulubdur. Yəni, bunu biz hamımız bilirik, amma dünya da bilməlidir. Hər yerdə bilməlidirlər ki, bu, bizim torpağımızdır, bizim haqqımız var, o torpaqda yaşamağa. Beynəlxalq hüquq təbii ki, bizim mövqeyimizi müdafiə edir. Ancaq bütün dünya ictimaiyyəti bilməlidir ki, təkcə beynəlxalq hüquqla məsələ məhdudlaşmır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Ermənilər Dağlıq Qarabağa və bəzi başqa yerlərə XIX əsrdə İrandan, Şərqi Anadoludan köçürülmüşlər. Hansı məqsədlə köçürülmüşlər biz bunu yaxşı bilirik. Bütün bunları biz gərək kitablar formasında daha da geniş şəkildə yayaq və beləliklə, bütün dünyaya sübut edək ki, bu, bizim tarixi, əzəli torpağımızdır".

**mayor R.Sarıyev**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov noyabrın 7-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti qəbul keçirib.

Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının qəbul üçün müraciət edən sakinlərinin, eyni zamanda, bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərin bir qrupu ilə görüşən nazir vətəndaşları narahat edən problemləri şəxsən dinləyib, onların qanunvericiliyə uyğun və operativ şəkildə həlli üçün konkret tapşırıqlar verib. Polis fəaliyyəti ilə bağlı olmayan müraciətlərin aidiyyəti qurumlara göndəriləcəyi diqqətə çatdırılıb. Ümumilikdə, cənab Ramil Usubov tərəfindən 50 vətəndaş qəbul edilib.

Bununla yanaşı, kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, həmin şəhər və rayonlarda yaşayan, polisin sıravi və kiçik rəis heyəti vəzifələrində, Daxili Qoşunların sıralarında xidmət etmək istəyən 1700 gənc də qəbulda iştirak edib. Onların arasından daha hazırlıqlı olan 65 namizəd polis orqanlarında, 120 nəfər isə Daxili Qoşunlarda xidmətə qəbul üçün seçilərək sənədlərinin hazırlanması məqsədilə aidiyyəti baş idarələrin rəhbərlərinə müvafiq göstəriş verilib. Nazir namizədlərə öz tövsiyələrini verib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Qəbulda iştirak edənlər yerlərdə vətəndaşlarla dövlət məmurlarının görüşmələri, onların müraciətlərinə, ərizə və şikayətlərinə operativ, həssaslıqla yanaşılması barədə dövlət başçısının məlum tapşırığının yüksək səviyyədə icrasına, problemlərinin həllinə hər zaman xüsusi diqqət və qayğı göstərilməsinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## DAXİLİ QOŞUNLARIN KOMANDANI GƏNC ƏSGƏRLƏRLƏ GÖRÜŞÜB

***General-leytenant Şahin Məmmədov xüsusi olaraq vurğulayıb ki, göstərilən yüksək diqqət və qayğıya cavab olaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin etimadını bundan sonra da doğruldacaqdır.***

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev fəaliyyətə başladığı ilk günlərdə bəyan etmişdir ki, ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin daha da inkişaf etdirilməsi onun fəaliyyətində prioritet istiqamətlərdən biri olacaq. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin daha da yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlər Ali Baş Komandanın siz əsgərlərin şərəfli xidmətinə yüksək qiymət verdiyini bir daha təsdiq edir".






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına uyğun olaraq, oktyabrın 30-da Azərbaycan Respublikasının müvafiq yaş kateqoriyasına aid vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə qəbulu başa çatıb. Sərəncamdan irəli gələn tələblər Daxili Qoşunlar Komandanlığının ciddi nəzarəti altında həyata keçirilib.

Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən, gənc əsgərlərin qəbulu, yerləşdirilməsi və təlim-tədrisinin təşkili prosesində iştirak edən və bu sahəyə cavabdeh vəzifəli şəxslər tərəfindən müvafiq tədbirlərin yerinə yetirilməsi təmin olunub.

Oktyabrın 31-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov gənc əsgərlərin kazarma-məişət şəraiti, təchizatı, qidalanması və sağlamlıq durumunun vəziyyətinin yoxlanılması məqsədilə qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində olub. Həmin gün Daxili Qoşunların Komandanı gənc əsgərlərlə görüşüb.

Gənc əsgərlər qarşısında çıxış edən general-leytenant Ş.Məmmədov qeyd edib ki, görüşün təşkil edilməsində məqsəd ordu quruculuğu sahəsində respublikada həyata keçirilən məqsədyönlü islahatları, Daxili Qoşunların vəzifələrini, yerinə yetirdiyi tapşırıqları diqqətə çatdırmaqdır.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi üçün görülən işlərdən danışan Daxili Qoşunların Komandanı vurğulayıb ki, bu gün gənc əsgər kimi sıralarımıza daxil olan hərbi qulluqçulara hərbi xidməti tələb olunan səviyyədə təşkil etmək üçün hərtərəfli şərait yaradılıb:

Qeyd edilib ki, xidmət dövründə öyrənilən hərbi bilikləri, qazanılan təcrübəni dövlətimizin daha da qüdrətlənməsinə, güclənməsinə yönəltməli, vəzifə borclarımızdan irəli gələn tələbləri layiqincə yerinə yetirməli, bir sözlə, Vətənə layiqli övlad olmalıyıq. Vətənini, dövlətini ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçməlidir.

Çıxışın sonunda xüsusi olaraq vurğulanıb ki, göstərilən yüksək diqqət və qayğıya cavab olaraq Daxili Qoşunların şəxsi heyəti Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin etimadını bundan sonra da doğruldacaqdır.

Sonda gənc əsgərləri maraqlandıran suallar cavablandırılıb.

**Mətbuat xidməti**

QƏHRƏMANLAR UNUDULMUR!

## HƏRBİ QULLUQÇULARIMIZ VƏTƏN UĞRUNDA CANLARINI FƏDA ETMİŞ ŞƏHİDLƏRİMİZİN MƏZARINI ZİYARƏT EDİBLƏR





Dövlət Bayrağı Günü ərəfəsində - noyabrın 8-də Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının bir qrup şəxsi heyəti tərəfindən torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarları ziyarət olunub, xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun məzarı ziyarət olunub. Müdafiə Nazirliyi adından general-mayor Rasim Əliyev, Daxili Qoşunların Komandanlığı adından isə general-mayor Şirin Xəlilov Milli Qəhrəmanın məzarı önünə əklillər və gül dəstələri qoyub.

Sonra Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Qeyd edək ki, müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunların hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçmiş Milli Qəhrəman Mübariz İbrahimov 2010-cu ilin iyun ayında təkbaşına düşmənin onlarla canlı qüvvəsini məhv edərək, erməni silahlı birləşmələrinə sarsıdıcı zərbə vurmuşdur. Onun erməni qəsbkarları ilə döyüşdə göstərdiyi misilsiz şücaət bu gün Daxili Qoşunların sıralarında xidmət edən bütün əsgərlərimiz üçün örnəkdir.

**Mətbuat Xidməti**

## MÜƏLLİM VƏ TƏLƏBƏ HEYƏTİ DAXİLİ QOŞUNLARIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YERLƏŞƏN HƏRBİ HİSSƏSİNDƏ OLUB

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Naxçıvan MR Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Yeni Azərbaycan Partiyası Naxçıvan MR təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə oktyabrın 27-də Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Universitetinin tələbələrinin Daxili Qoşunların 12565 saylı hərbi hissəsi ilə tanışlığı təşkil edilib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin zabiti mayor Məftun Xəlilov, 12565 saylı hərbi hissənin zabiti baş leytenant Orxan Seyidov çıxış edərək, tədbirin keçirilməsinin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, görüşün keçirilməsində əsas məqsəd çağırışyaşlı gənclərə vətənpərvərlik hissinin aşılanması, onların hərbi xidmətə hazırlanması, Vətənə məhəbbət, dövlətə sədaqət ruhunda tərbiyə edilməsindən ibarətdir.

Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin yüksək döyüş hazırlığı və maddi-texniki bazası ilə seçildiyi vurğulanan çıxışlarda bildirilib ki, son illər hərbi hissənin ərazisində müasir standartlara uyğun yaşayış binaları, əsgər yeməkxanası, hərtərəfli şəraitə malik kazarmalar, müxtəlif təyinatlı anbarlar, qazanxana sistemləri və digər sosial-məişət obyektləri inşa edilib. Şəxsi heyətin geyim təminatı, keyfiyyətli qidalanması, yaşayış və məişət şəraiti diqqət mərkəzində saxlanılır. Təbii ki, bütün görülən işlər şəxsi heyətin mənəvi-psixoloji durumunun daha da yüksəldilməsinə xidmət edir.

Sonra hərbi hissədə yaradılmış şəraitlə tanış olan gənclərə şəxsi heyətin istifadəsində olan müasir silah və texnikalar nümayiş etdirilib, onların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

Əsgər kazarmasında, tibb məntəqəsində və əyani vəsaitlərlə zəngin sinif otaqlarında, əsgər yeməkxanasında olan qonaqlar onlarla birlikdə nahar edərək, hazırlanmış yeməklərin keyfiyyətindən razı qaldıqlarını da bildiriblər.

Dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatələnən Daxili Qoşunların şəxsi heyətinin yüksək döyüş hazırlığına malik olmasından yalnız və yalnız qürur hissi keçirdiklərini ifadə edən müəllim və tələbə heyəti hərbi hissədən xoş təəssüratlarla ayrılıblar.

**leytenant X.Tağıyeva**

## 25033 VƏ 17074 SAYLI HƏRBİ HİSSƏLƏR BİRİNCİ OLDU

Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, hərbi hissələrdə fiziki hazırlıq işinin vəziyyətinin müəyyən edilməsi, hərbi qulluqçuların müntəzəm olaraq fəal idman məşqlərinə cəlb olunması, eləcə də kütləvi idman işinin təşkilinin və maddi-texniki tədris bazasının təkmilləşdirilməsi məqsədi ilə oktyabrın 1-dən 31-dək baxış müsabiqələri keçirilib.





Kütləvi idman işinə baxış müsabiqəsi zamanı bütün hərbi hissələrin hərbi qulluqçuları turnikdə dartınma, 100 və 1000 metr məsafəyə qaçış, maneələr zolağının keçilməsi kimi normativlərin yerinə yetirilməsinə cəlb olunublar.

Bölmələr arasında normativlərin yerinə yetirilməsində 25033, 16077, 17074, 16073 saylı hərbi hissələrin xüsusi təyinatlı bölmələrinin, 99713, 67987, 25033 və 17072 saylı hərbi hissələrin xüsusi vasitələrin tətbiqi dəstələrinin, həmçinin 25033 saylı hərbi hissənin ayrı yerləşən əməliyyat taborunun şəxsi heyəti yüksək nəticələr əldə edib.

17074, 16077, 12318, 16073, 99713, 67987 və 25033 saylı hərbi hissələrdə maddi-texniki tədris bazasının yaradılmasının və təkmilləşdirilməsinin daim diqqət mərkəzində saxlanıldığı məlum olub.

Yerlər isə aşağıdakı kimi müəyyənləşib:

**Kütləvi-idman işi üzrə**

**I yer** – 25033 saylı hərbi hissə
**II yer** – 16077 saylı hərbi hissə
**III yer** – 99713 saylı hərbi hissə

**son üçlükdə**

**XII yer** – 25031 saylı hərbi hissə
**XIII yer** – 17077 saylı hərbi hissə
**XIV yer** – 64412 saylı hərbi hissə

**Maddi-texniki tədris bazası üzrə**

**I yer** – 17074 saylı hərbi hissə
**II yer** – 16077 saylı hərbi hissə
**III yer** – 12318 saylı hərbi hissə

**son üçlükdə**

**XII yer** – 25031 saylı hərbi hissə
**XIII yer** – 16076 saylı hərbi hissə
**XIV yer** – 17071 saylı hərbi hissə



## ƏLAMƏTDAR GÜNLƏRLƏ ZƏNGİN NOYABR AYI

***Noyabr ayı Azərbaycan tarixi üçün əlamətdar günlərlə zəngindir. Diqqət edək: Noyabrın 3-də (1992) «Hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir, 6-da (1967) Bakıda metro fəaliyyətə başlamışdır, 6-sı (1926) həmçinin televiziya və radio işçiləri günü kimi qeyd olunur, 7-də (1949) Neft daşlarında ilk dəniz neft quyusu fontan vurmuşdur, 9-da (1918) üçrəngli bayrağımız ADR-in Dövlət bayrağı kimi qəbul edilmişdir, 11-də (1971) C.Naxçıvanski adına hərbi məktəbin yaradılması haqqında Azərbaycan SSR Ali Sovetinin fərmanı verilmişdir, 12-də (1995) Referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir, 17-də (1988) Azərbaycan xalqı ilk dəfə «Azadlıq» meydanına toplaşaraq öz azadlığı uğrunda Sovet rejiminə qarşı etirazını bildirmişdir, 19-da (1918) Milli Şura «Azərbaycan parlamentinin yaradılması» haqqında qanun qəbul etmişdir.***

***Bu bayramlardan əsasən üçü barədə (9 noyabr - Dövlət Bayrağı Günü, 12 noyabr - Konstitusiya Günü və 17 noyabr – Dirçəliş Günü) qısa da olsa, məlumat vermək istərdik. Ona görə ki, hər üç əlamətdar gün xalqımızın, dövlət və dövlətçiliyimizin möhkəmlənməsində, güclənməsində mühüm əhəmiyyət kəsb edir.***

### 9 NOYABR - DÖVLƏT BAYRAĞI GÜNÜ

Azərbaycan Respublikasının dövlətçilik rəmzlərindən biri onun Milli Bayrağı-Dövlət Bayrağıdır. Milli bayraq-siyasi-ideoloji, mənəvi baxımdan bir millətin və dövlətin mövcudluğunu təsdiqləyən rəmzdir. BAYRAQ sözünün tarixi çox qədimdir. Müasir anlamda bayraq, dövlətimizin, millətimizin müstəqillik, suverenlik, milli-azadlıq və istiqlal rəmzidir.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli, ay-ulduzlu bayraq-indiki Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti indiki bayrağı Azərbaycan Respublikasının Dövlət Bayrağı elan edib.

Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2009-cu il tarixli sərəncamına əsasən, hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının "Dövlət Bayrağı Günü" elan olunub.

### 12 NOYABR - KONSTİTUSİYA GÜNÜ

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı referendum yolu ilə öz dövlətinin Əsas Qanununu-Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin ilk milli konstitusiyasıdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsini hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradıldı. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də qüvvəyə mindi.

Yeni Konstitusiya ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması işinə hüquqi zəmin yaratdı. Əsas Qanunda dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsinə və vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və s. kimi nailiyyətlər təsbit olundu.

Artıq zaman Əsas Qanunumuzun nə qədər güclü, kamil və həyati sənəd olduğunu təsdiqləyib və o demokratik sənəd kimi özünü doğruldub. Əsas Qanunumuz olan Konstitusiyada dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunub. Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilib. Konstitusiyanın 24-cü maddəsinin 1-ci hissəsində deyilir: "Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır".

Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, Avropa Şurasına üzv qəbul olmuşdur. Baş vermiş bu dəyişikliklərdən, demokratik dəyərlərin inkişafına yönəldilmiş bir sıra islahatlardan irəli gələn hüquqi tənzimləmə öz əksini Konstitusiyada tapmalı idi. Bununla əlaqədar olaraq, Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən, 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi. Xalqın iradəsinin nəticəsi olaraq Konstitusiyada 24 əlavə və dəyişiklik edildi. Bunlar, insan hüquqları və azadlıqları, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklər, seçki sistemi, haki miyyət bölgüsü və s. bağlı əlavə və dəyişiklərdir.

### 17 NOYABR - MİLLİ DİRÇƏLİŞ GÜNÜ

17 noyabr dövlətimiz və xalqımız tərəfindən "Milli Dirçəliş Günü" kimi qeyd edilir. 1988-ci il noyabrın 17-də xalq Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı.

XX əsrin 80-ci illərinin ortalarından etibarən SSRİ-də baş verən ictimai-siyasi proseslər nəticəsində Azərbaycanın müstəqilliyin bərpa edilməsi üçün geniş imkanlar yaranmışdı. Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi. Təpədən-dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini müdhiş bir amansızlıqla qətlə yetirirdilər. Bu ədalətsizliklərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin gün Sovet müstəmləkə rejimi şəraitində repressiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünüdərkə doğru bir dönüş başlandı.

Bu gün Azərbaycan Respublikası milli müstəqillik yolunda mətin addımlar atır, Azərbaycan Demokratik Respublikasının varisi kimi dünya dövlətlər birliyində tamhüquqlu, layiqli yer tutur. Bu işdə xüsusi xidmətləri olan Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin sosial, siyasi, milli-mənəvi bünövrəsinin strateji istiqamətlərini müəyyən etmiş, onun ideoloji təməlini yaratmışdır. Ulu Öndərin fikirləri ilə desək, "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".

**gizir N.Ağayeva**

## NÜMUNƏVİ-GÖSTƏRİCİ HƏRBİ ORKESTR - 21 İL



***Noyabrın 17-də Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin yaranmasının 21-ci ildönümü tamam olacaq.***

Fəaliyyət göstərdiyi illər ərzində hərbi marşları və musiqiləri ilə ruh yüksəkliyi yaradaraq, hərbi qulluqçularımızı hər zaman mübarizəyə və qələbəyə səsləyən Nümunəvi-göstərici orkestr bu gün yaradıcılıq baxımından profesional yönümdə formalaşır, öz ifaçılıq dəsti-xətti ilə fərqlənir.

Orkestrin bədii rəhbəri – Daxili Qoşunların Baş İdarəsində Hərbi orkestr xidmətinin rəisi-baş hərbi dirijor, polkovnik-leytenant İlqar Novruzov bildirir ki, orkestrin sıralarında kapitan Cahangir Qurbanov, baş leytenant Zaur Əmiraslanov, leytenant Fidan Hacıyeva, gizir Vəsilə İbrahimova, Səlim Abbasov, Prezident təqaüdçüsü Amil Məmmədov, Zabitə Alıyeva, Zeynalabdin Kərimov və Aslan Hüseynov kimi istedadlı solistlər var. Hazırda 115 nəfərdən ibarət olan orkestrin nəzdində mahnı və rəqs ansmblı da fəaliyyət göstərir.

Orkestrin repertuarına gəldikdə isə bura dünyanın dahi bəstəkarları L.Van Bethoven, V.A. Mosart, F.Şopen, P.Çaykovski, o cümlədən Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Tofiq Quliyev və başqalarının əsərləri daxil edilib.

Polkovnik-leytenant İ.Novruzov orkestrin repertuarını seçərkən müxtəlif janrlara müraciət etdiyini söylədi: "Xalq mahnıları, hərbi vətənpərvərlik ruhunda yazılmış marşlar ilə yanaşı, estrada, klassik və caz musiqiləri repertuarımızda xüsusi yer tutur. Bu musiqilər hər bir kəsdə Vətənə, xalqa, dövlətə sevgi və sədaqət hisslərinin formalaşmasında mühüm rol oynayır".

O, orkestrin cəbhə bölgəsində, qoşunların bütün hərbi hissələrində, müxtəlif idarə və təşkilatlarda, mədəniyyət mərkəzlərində və ölkənin televiziya kanallarında, o cümlədən ən əlamətdar günlərdə, hərbi andiçmə mərasimlərində çıxış etdiyini də vurğuladı.

Həmçinin qeyd etdi ki, bu gün Daxili Qoşunlar Komandanlığının xüsusi diqqət və qayğısı sayəsində orkestrin yaradıcılıq fəaliyyətini inkişaf etdirməsi üçün hər cür şərait yaradılır. Yeni müasir səs avadanlıqlar və musiqi alətləri alınır. Bütün bunlar, orkestrin solistlərini yaradıcılıq axtarışlarını davam etdirməyə və peşəkarlıqlarını artırmağa sövq edir.

**Orkestrin kollektivinə bundan sonrakı fəaliyyətlərində uğurlar və ordumuzun zəfər günündə qələbə marşını ifa etməyi arzulayırıq.**

**leytenant X.Tağıyeva**



## DAXİLİ QOŞUNLAR QIŞ MÖVSÜMÜNƏ TAM HAZIRDIR

***Bütün görülmüş tədbirlərlə yanaşı, şəxsi heyətin tibbi təminatına və sağlamlığına xüsusi diqqət yetirilib***

***Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə qış mövsümünə hazırlıq işləri başa çatdırılıb.***



Bu barədə Maddi-texniki təminat İdarəsində Mənzil-istismar xidmətinin rəisi polkovnik-leytenant Vidadi Məmiyev ətraflı məlumat verib. Onun sözlərinə görə, müvafiq tədbirlərin icrası ilə bağlı hərbi hissələrdə görüləcək işlər barədə cari ilin may ayının 25-də hərbi hissələrin mənzil istismar xidmətinin rəisləri ilə keçirilən metodiki-təlim toplantısında və Daxili Qoşunlar Komandanının müavini-Maddi-texniki təminat İdarəsi rəisinin iştirakı ilə keçirilən xidməti müşavirələrdə ətraflı müzakirələr aparılaraq müvafiq tapşırıqlar verilib.

Xidmət rəisi əlavə etdi ki, hazırda qoşunların hərbi hissələrində kazarma-yaşayış fondunun, kommunal qurğuların qış mövsümündə normal istismarının təmin olunması məqsədi ilə bir çox işlər uğurla həyata keçirilib.

Zabit və gizir hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 16075 saylı hərbi hissədə 1 ədəd 5 mərtəbəli 60 mənzilli yataqxana binası, 25031 saylı hərbi hissədə müasir tələblərə cavab verən yeni 4 mərtəbəli qərargah və əsgər kazarması, 12318 saylı hərbi hissədə 4 mərtəbəli əsgər kazarması, hamam-çamaşırxana kompleksi, tibb məntəqəsi, sanitar qovşağı inşa edilərək istismara verilib. Bütün mənzillər, xidməti otaqlar və yataq otaqları tələb olunan mebel və əmlaklarla təchiz edilib. 67987 saylı hərbi hissənin 5 mərtəbəli əsgər kazarmasında və əsgər yeməkxanasında pəncərələr yenisi ilə əvəz olunub, 4 mərtəbəli qərargah və kazarma binasında giriş və daxili qapılar dəyişdirilib. Ali Hərbi Məktəbin tədris təkmilləşdirmə kursunun binasında əsaslı təmir işləri aparılıb, əsgər yeməkxanasının döşəmələri təmir olunub, 150 nəfərlik akt zalı hazırlanıb. Eyni zamanda, 25031 saylı hərbi hissənin zabit yataqxanasında 2 ədəd 1000 litrlik boyler, 1 ədəd istilik qazanı, 16076 saylı hərbi hissədə elektrik təchizatının yaxşılaşdırılması üçün 150 KVA-lıq generator, 17072 saylı hərbi hissənin ərazisində yerləşən tibb məntəqəsi və kazarma binasının istiliklə təchizatı üçün 2 ədəd 36 KVT-luq kombi quraşdırılıb. Ümumilikdə, temperatur rejiminin saxlanılması üçün 25031 saylı hərbi hissənin əsgər kazarmasında 18 ədəd, 99713, 16076, 16075 və 12565 saylı hərbi hissələrin əsgər yeməkxanalarında və ərzaq anbarlarında 13 ədəd kondisioner quraşdırılıb.

Hərbi hissələrdə qış mövsümünə hazırlıqla əlaqədar yaşayış və qeyri-yaşayış binalarında kosmetik təmir işləri aparılıb. Eyni zamanda, ərazilərin qardan, buzlardan təmizlənməsi üçün bütün hərbi hissələr lazımi sayda alət və ləvazimatlarla təmin edilib. Bütün hərbi hissələrdə qazanxana və istilik sistemlərində təmir işləri aparılaraq, hamam-camaşırxana komplekslərində istilik xətləri çəkilib və elektrik kombiləri quraşdırılıb.

Bütün görülmüş tədbirlərlə yanaşı, şəxsi heyətin tibbi təminatına və sağlamlığına xüsusi diqqət yetirilib.

Bir sözlə, Daxili Qoşunlar bütün təminat növləri üzrə qışa tam hazırdır.

**gizir N.Ağayeva**

















## SƏHRA TƏLİMLƏRİ UĞURLA BAŞA ÇATIB

***Komanda-qərargah maşınlarının fəaliyyəti, rabitə sisteminin təşkili qənaətbəxş hesab edilib***

«2015-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı»nın icrası ilə əlaqədar hərbi hissələrin komanda-qərargah maşınlarının fəaliyyətinin yoxlanılması məqsədilə şəxsi heyət üçgünlük səhra təlimlərinə cəlb olunub. Belə ki, təlimlər Daxili Qoşunlar Komandanının 1-ci müavini–Qərargah rəisinin müvafiq göstərişinə əsasən, oktyabrın 22-24-də qoşunların Xızı rayonunda yerləşən Təlim Mərkəzində Daxili Qoşunların Dayaq rabitə qovşağının, 99713, 67987 saylı hərbi hissələrin komanda-qərargah maşınlarının şəxsi heyəti ilə keçirilib.

Rabitə və AİS şöbəsinin rəis müavini-baş zabit polkovnik-leytenant Asəf Cəfərov bildirdi ki, oktyabrın 22-də 99713 saylı hərbi hissənin bazasında təlimdə iştirak edən hərbi qulluqçulara sıra baxışı keçirilərək onların xarici görünüşü və səhra çantaları yoxlanılıb. Praktiki məşğələlər isə Təlim Mərkəzində keçirilib. Burada komanda-qərargah maşınının açılıb-yığılması məşq etdirilib. Eyni zamanda, komanda-qərargah maşınlarının fəaliyyətləri radiomübadilə üsulu ilə yoxlanılarkən hər bir taqım komandiri fərdi qaydada öz hərbi hissəsinin rabitə qovşağı ilə əlaqə saxlayaraq müvafiq diapazonlarda radiorabitənin vəziyyətini nümayiş etdirib.



Təlimin sonunda hərbi qulluqçulardan ixtisas hazırlığından məqbullar qəbul edilib.

Qeyd edək ki, oktyabrın 24-də dislokasiya yerinə qayıdarkən hərəkətdə radiorabitənin yoxlanılması məqsədilə radiostansiyalar vasitəsilə maşınlar arasında müxtəlif tezliklərdə əlaqə yaradılıb. Nəticə etibarı ilə rabitə sisteminin təşkili qənaətbəxş hesab edilib.

**gizir N.Ağayeva**

NÜMUNƏVİ XİDMƏT

***Çavuş Elbrus Şabanov və baş əsgər Rəşad İlyasov 16077 saylı hərbi hissənin çalışqanlığı, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularıdır.***





Çavuş E.Şabanov 1991-ci il iyunun 22-də Zaqatalanın Çobanköl kəndində anadan olub. 2008-ci ildə orta məktəbi bitirən Elbrus 2009-2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində əsgəri xidmət keçib.

Baş əsgər R.İlyasov isə 1992-ci il martın 3-də Qubanın Püstəqasım kəndində doğulub. 2009-cu ildə orta məktəbi bitirərək, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.

Çavuş E.Şabanov 2011-ci ildən, baş əsgər R.İlyasov isə 2012-ci ilin mart ayından Daxili Qoşunların 16077 saylı hərbi hissəsində xidmət edir.

Hərbi xidmətin çətinliklərini, məsuliyyətini dərk edən hərbi qulluqçularımız daim öz üzərində çalışan, xidmətdə nöqsana yol verməyən hərbçilərdir. Onlar verilən bütün tapşırıqları tez və qüsursuz şəkildə yerinə yetirir, hərbi hissə komandanlığının etimadını daim doğruldurlar.

Hərbi qulluqçularımız bildirir ki, bu gün hər kəs bir amal uğrunda-Vətənimizin gündən-günə qüdrətlənməsi, abadlaşması üçün bir yumruq kimi birləşməli, xidmətdə əzmkar olmalı, döyüş hazırlığını yüksək səviyyədə saxlamalıdır.

Hər iki hərbi qulluqçu bundan sonra da qarşıya çıxan tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün əzmkarlıq nümayiş etdirəcəklərinə söz verdi.

METODİKİ VƏSAİT

## MÜRƏKKƏB ŞƏRAİTDƏ KARVAN TƏRKİBİNDƏ MAŞINLARIN İDARƏ EDİLMƏSİ

*(əvvəli ötən sayımızda)*

**Buz bağlamış və sürüşkən yollarda maşını idarə edərkən aşağıdakı qaydalara riayət olunmalıdır:**

- hərəkət sürəti aşağı salınır;
- maşınlar arasındakı məsafə artırılır;
- qabaq aparıcı körpülər qoşulur, differensial bağlanır, şinlərdə təzyiq aşağı salınır, sürüşməyə qarşı zəncirlərdən istifadə edilir və tırtıllara əlavə mahmızlar bərkidilir;
- maşının yerindən tərpədilməsi və sürətin artırılması səlis, təkərlərin yerində boş fırladılmaması şərti ilə həyata keçirilir;
- maşınların qəfildən tormozlanmasına yol verilməməlidir. Tormozlanma, bir qayda olaraq, mühərrik və zərurət olduqda əlavə olaraq işçi tormoz vasitəsilə həyata keçirilir;
- ötürmələr imkan daxilində yolun düz sahələrində yerinə yetirilir;
- maşınların yana əyilməsinə imkan daxilində yol verilməməlidir;
- buz bağlamış eniş və yoxuş sahələrinin yanından keçmək imkanı olmadıqda, həmin sahə aşağı ötürmə birləşdirilməklə və rəvan sürətlə qət edilir.

**Dumanda və havanın həddindən çox tozlanması zamanı aşağıdakı qaydalara riayət olunmalıdır:**

- hərəkət sürəti aşağı salınır;
- dumanda hərəkət vaxtı maşınlar arasındakı məsafə azaldılır, havanın həddindən çox tozlanması zamanı isə məsafə artırılır;
- nəqliyyat vasitələrini ötüb keçmək və yolun orta hissəsinə çıxmaq qəti qadağandır;
- hərəkət vaxtı və dayanarkən xarici işıq siqnalları yandırılır;
- hərəkət vaxtı zərurət olduqda səs siqnalı verilir.

**Maşınların meşəlik-bataqlıq yerlərdə hərəkəti zamanı aşağıdakı qaydalara riayət olunmalıdır:**

- kiçik bataqlıqlar əvvəldən seçilmiş yüksək sürətlə keçilməlidir. Bu zaman qəfil dönmələrdən və maşının dayandırılmasından çəkinmək lazımdır;



- uzunluğu çox böyük olan bataqlıq əraziləri sabit sürətlə keçmək lazımdır, bu zaman aşağı ötürmə və avtomobilin differensialı qoşulur, qabaq körpü birləşdirilir və şinlərdə havanın təzyiqi tənzimlənən maşınlarda şinlərin təzyiqi aşağı salınır. Bataqlıq keçildikdən sonra yenidən şinlərdə normal vəziyyət yaradılır;
- maşın hər hansı bir yerdə ilişərsə, onda təkərlərin altına payalar və ya lövhə, daş, ağac budaqları düzülür, torpaq yerdə təkərlərin altının qazılmasına yol verilmir;
- karvanda hərəkət edərkən qabaqda gedən maşının izi ilə hərəkət etməyə icazə verilmir;
- kiçik, lakin dərin bataqlıq sahələrini keçmək üçün əl altında olan materiallardan döşəmələr quraşdırılır;
- əgər yolun müəyyən hissəsində təkər izləri dərin olarsa, onda maşın ya təkər izlərinin üstü ilə, ya da bir təkərin izi ilə hərəkət etdirilir;
- meşədə ağacların arası ilə hərəkət elə seçilməlidir ki, döngələrin sayı az olsun;
- kolluqla hərəkət edərkən maşının qəfildən qarşıya çıxan daşlara və kötüklərə dəyməməsi üçün sürət aşağı salınır.

Su keçidlərində bərə olmazsa, onda həmin yerdə kəşfiyyat aparılır və keçid lazımi avadanlıqlarla təchiz edilir. Tırtıllı və təkərli maşınlar üçün, bir qayda olaraq, ayrıca keçidlər tikilir.

**Çay keçidləri quraşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:**

- çay keçidlərinin istiqaməti, bir qayda olaraq, çayın axma istiqamətində bucaq altında seçilir;
- keçidin istiqaməti üzrə su maneəsinin dibi maşınların keçə biləcəyi vəziyyətə gətirilir;
- çay keçidinin sərhədləri paya və göstəricilərlə, gecə vaxtı hərəkət etmək üçün isə xüsusi işıqlandırıcı işıqlar və fənərlər vasitəsilə işarələnir;
- sahildən çıxış və sahilə giriş lazımi avadanlıqlarla təchiz edilir.

Batmış və ilişib qalmış maşınları çəkib çıxarmaq üçün hər iki sahildə yedəkçilər qoyulur.

Maşınlar çay keçidlərinə ötürmələr dəyişdirilmədən və aşağı ötürməyə keçmək şərtilə, o cümlədən hərəkət istiqamətini dəyişmədən və dayanmadan istiqamətləndirilir. Su maneəsini keçdikdən sonra tormoz qəlibləri kiçik tormozlama vasitəsilə qurudulur. Birinci imkandan istifadə edərək maşında nəzarət baxışı keçirilir.

Dərin çay keçidlərini keçən zaman ventilyatorun qayışı ya boşaldılır, ya da tamamilə çıxardılır, radiatorun jalüzü isə bağlanır. Çox dərin çay keçidlərini keçərkən maşında xüsusi hazırlıq keçirilir, alışdırma, qidalandırma sistemləri germetiklənir, hava süzgəclərinin səviyyəsi və səsboğanın borusu yuxarı qaldırılır.

**Buzlu su maneələrini keçməzdən qabaq buzun qalınlığı, quruluşu və yükgötürmə qabiliyyəti öyrənilir, bundan sonra bərə keçidi quraşdırılır. Buz üzərində bərə keçidinin quraşdırılması üçün:**

- buzlu sahilə giriş və çıxış yolları düzəldilir;
- buz üzərində bərədən hər iki tərəfə 10 m enində qar təmizlənilir;
- hərəkət zolağının eni payalarla işarələnir və xüsusi nişanlarla bərənin yükgötürmə qabiliyyəti göstərilir.

Əgər buzun yükgötürmə qabiliyyəti kifayət qədər deyilsə, onda onun möhkəmləndirilməsi üçün xüsusi tədbirlər görülür.

**Maşınların buz bərələrində hərəkəti zamanı aşağıdakı qaydalara riayət olunmalıdır:**

- maşınlar yalnız bir istiqamətdə buraxılmalıdır;
- çəkisi buzun yükgötürmə qabiliyyətindən çox olan maşınlar bərəyə buraxılmamalıdır;
- buz üzərində hərəkət kabinənin qapısının açıq saxlanması şərtilə yerinə yetirilməlidir;
- şinləri təzyiqlə tənzimlənən avtomobillər buz üzərində hərəkət edərkən şinlərin təzyiqi aşağı salınmalıdır;
- buz üzərində maşınların dayandırılması, döndərilməsi və qəfildən sürətinin artırılması qadağandır.

Əgər buz maşının altında əyilərsə, onda hərəkət sürəti rəvan şəkildə artırılır.

Bərənin eni 50 m-dən azdırsa, ikinci maşının buzun üzərinə qalxmasına yalnız birinci maşın qarşı sahilə çıxdıqdan sonra icazə verilir. Buzun qalınlığı maşının hərəkəti üçün münasib qalınlığa yaxın olduqda şəxsi heyət maşından düşürdülür və maşının arxasınca, ən azı 50 m aralıda gedir.

**Avtomobil və Zirehli Texnika şöbəsi**